# GÖRKƏMLİ ƏDİB VƏ MAARİFÇİNİN YUBİLEY GECƏSİ

XX əsr Azərbaycan ədəbiyyatının və milli təhsilimizin inkişafında nasir, dramaturq, maarifçi kimi Abdulla Şaiq Talıbzadənin müstəsna əməyi vardır. Yubileyi Azərbaycanın mədəniyyət bayramına çevrilmiş görkəmli ədib və maarifçinin anadan olmasının 120 illiyi münasibətilə dekabrın 12-də Dövlət Akademik Opera və Balet Teatrında gecə keçirilmişdir.

Teatrın foyesində A.Şaiqin həyat və yaradıcılığından bəhs edən sərgi düzəldilmişdi.

Gecəni mədəniyyət naziri Polad Bülbüloğlu giriş sözü ilə açaraq, həm də ədəbiyyatşünas, gözəl bədii tərcümə ustası olan Abdulla Şaiqin milli mədəniyyətimizin inkişafına göstərdiyi xidmətdən, onun yaradıcılıq irsinin böyük şöhrətindən danışdı.

Milli Elmlər Akademiyasının müxbir üzvü, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, professor Yaşar Qarayev Abdulla Şaiqin yaradıcılığı və çoxşaxəli fəaliyyəti barədə məruzə etdi. O dedi ki, A.Şaiq ötən əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindəndir. Ədib uzunmüddətli fəaliyyətinin böyük bir qismini maarifçiliyin müxtəlif sahələrinə bağlamış, istedadlı dəyərli pedaqoq olmaqla bərabər, orta təhsil məktəbləri üçün elə sanballı dərsliklər, eyni zamanda müxtəlif janrlarda bədii əsərlər yaratmışdır və bunlar böyüməkdə olan gənc nəslin tərbiyəsinə öz güclü müsbət təsirini göstərmişdir. Təsadüfi deyildir ki, Azərbaycanda uşaq ədəbiyyatının, xüsusilə milli uşaq dramaturgiyasının yaranmasında, o cümlədən uşaq teatrının təşəkkülü və inkişafında A.Şaiqin misilsiz xidmətləri olmuşdur.

Sonra A.Şaiqin oğlu, akademik Kamal Talıbzadə çıxış edərək, atasının yaradıcılığının və xatirəsinin yüksək qiymətləndirilməsinə görə respublika prezidenti Heydər Əliyevə, yubiley gecəsinin bütün iştirakçılarına dərin minnətdarlığını bildirdi.

Azərbaycan incəsənət ustalarının konserti ilə başa çatan yubiley gecəsində A.Şaiqin şerləri, əsərlərindən parçalar da ifa olundu.

Gecədə Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov, baş nazirin müavini Elçin Əfəndiyev, millət vəkilləri, görkəmli elm və mədəniyyət xadimləri iştirak edirdilər.

***AzərTAc***